“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nın 8.1.5-ci yarımbəndinin 1-ci hissəsinin icrası üzrə

# Birdəfəlik əməliyyatların siyahısı

***Maliyyə institutlarına münasibətdə:***

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 4.2.2-ci (iyirmi min manat məbləğində (bundan sonra – limit) və ya limitdən artıq) maddəsinə əsasən maliyyə institutları tərəfindən müştəri uyğunluğu tədbirləri aşağıdakı siyahıda göstərilən əməliyyatlar üzrə tətbiq edilir:

| **Birdəfəlik hesab edilən əməliyyatlar** |
|---|
| 1. Maliyyə institutlarının kassası vasitəsilə hesabın sahibi olmayan şəxs tərəfindən istənilən hesaba nağd mədaxil əməliyyatları |
| 2. Ödəniş terminalları vasitəsilə istənilən hesaba edilən mədaxil əməliyyatları |
| 3. Maliyyə institutlarının kassası və ödəniş terminalları vasitəsilə icra edilən sürətli pul köçürmələri |
| 4. Nağd valyuta mübadiləsi əməliyyatları |

**Qeyd:** *Maliyyə institutları tərəfindən Qanunun sözügedən maddələrinin tətbiqi zamanı hər bir müştəri üzrə müştəri kodu (CİF) yaradılmalıdır.*

***Qeyri-maliyyə institutlarına münasibətdə:***

- Notariuslar tərəfindən həyata keçirilən bütün notariat hərəkətləri birdəfəlik əməliyyat hesab edilir.
- Vəkillər tərəfindən birdəfəlik əməliyyatların həyata keçirilməsi qeydə alınmamış və həmin şəxslər tərəfindən müştəri uyğunluğu tədbirlərinin işgüzar münasibətlər çərçivəsində tətbiq edilməsi nəzərdə tutulmuşdur.
- Rieltorlar, hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslər, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən birdəfəlik əməliyyatların həyata keçirilməsi qeydə alınmamış və həmin şəxslər tərəfindən müştəri uyğunluğu tədbirlərinin işgüzar münasibətlər çərçivəsində tətbiq edilməsi nəzərdə tutulmuşdur.